# QİYMƏTLƏNDİRMƏ

Bu bölmə seminarı yekunlaşdırır. O, məşğələlrin «yerində» qiymətləndirilməsi və müsbət səviyyədə yekunlaşdırılması üçün hazırlanmış tədbirlərdən ibarətdir. Bu xüsusi olaraq məşğələlər uzunmüddətli və intensiv xarakter daşıdığı halda faydalıdır.

«Yerində» qiymətləndirmə treninqə hazırlıqsız reaksiyanı əks etdirir. Həqiqi qiymətləndirmə treninqin nəticələrinin ilkin məqsədlərlə müqayisəli qiymətləndirilməsi əsasında və həmin qiymətləndirmənin həyata keçirilməsi üçün meyarların müəyyən olunması yolu ilə aparılır. «Yerində» qiymətləndirmənin dəyəri təşkilatçılar və aparıcılar tərəfindən gələcək treninqlər üçün faydalı məlumatların əldə olunmasındadır. Bu fəaliyyət növü dəyişməsi, gücləndirilməsi və ya çıxarılmasına ehtiyac olan treninqin məzmunu və üsullarına dair bəzi göstəricilərin əldə olunması imkanı yaradır. Əlbəttə, iştirakçıların mədəni və təcrübə səviyyəsi və xüsusiyyətləri də nəzərə alınmalıdır.

Qiymətləndirmə Formasının nümunəsi

Treninqin (seminarın) hənası dərəcədə faydalı olmasını və onun yaxşılaşdırılması üçün tədbirləri müəyyən edilməsində köməklik göstərmək üçün öz rəyinizi bildirmək xahiş olunur. Qabaqcadan minnətdarlığımızı bildiririk.

1. Sizin fikrinizcə treninqdə (seminarda) ən faydalısı nə idi?

2. Sizin fikrinizjə treninqdə (seminarda) ən faydasızı nə idi?

3. Treninqin (seminarın) mövzuları:
   /aşağıdakılardan birini seçin/

   Faydasız idi	Faydalı idi	Olduqça faydalı idi

_Şərhlər:_

4. Treninqin (seminarın) üsulu:
   /aşağıdakılardan birini seçin/

   Faydasız idi	Faydalı idi	Olduqça faydalı idi

5. Sizin fikrinizcə, treninq (seminar) zamanı nəyi öyrənmişsiniz?

6. Öyrəndiyinizi işinizdə necə tətbiq edəcəksiniz?
7. Öyrəndiyinizin tətbiqindən imtina etməyə Sizi nə məcbur edə bilər? (Sizin şəxsi mövqeyniz və çəkinmələriniz də daxil olmaqla).

8. Gələcəkdə bu treninqi nə cür görmək istərdiniz?

9. Digər şərhlər.

**Üçtərəfli Qiymətləndirmə**

Məqsədlər:
1. Treninqin mahiyyətini qiymətləndirmək.
2. Treninqin əlavə işlənməsinə ehtiyacı olan sahələrini müəyyənləşdirmək.
3. Treninq ilə əhatə olunmuş məsələləri iştirakçıların bir daha nəzərinə çatdırmaq.

Metod:
1. İştirakçılara üç-üç qruplara bölünməyi təklif edin.
2. Hər qrupa sualları paylayın və ya onları lövhədə yazın.
3. Kiçik qrupların hər bir üzvünə bir dəqiqədən az vaxt ərzində bir suala cavab vermək imkanı verilir.
4. Həmin şəxs suala cavab verdikdən sonra qrupun digər üzvlərinə onların fikrincə nəzərdən qaçırılmış istənilən əlavəni etmək imkanı verilir.(20-30 dəqiqə)
5. Bütün qruplar bütün sualların müzakirəsini bitirdikdən sonra onlara təklif olunur ki, əlavə xüsusi işlənməsinə ehtiyac duyulan sahələrə aid sualları seçsinlər. (10 dəqiqə)
6. Qruplar tərəfindən əlavə xüsusi işlənməsinə ehtiyac duyulan sahələrə aid suallar kimi qiymətləndirilmiş suallar bir daha ümumi müzakirə zamanı təhlil olunur. (20 – 30 dəqiqə)

*Üçtərəfli qiymətləndirmə üçün suallar nümunəsi*
(hər bir fəaliyyət növü üzrə bir sual)

1. Qender ilə Cins arasında hansı fərq mövcuddur?

2. Qenderin öyrənilməsi əhəmiyyəti nədən ibarətdir?

3. Uşaqlıq dövrünün qender rollarına hansı təsiri vardır?

4. Bizim şəxsi stereotiplərimiz işimizə necə təsir edə bilərlər?

5. «Bütün ev təsərrüfatlırının başçıları kişilərdir» mülahizəsi İnkişafın planlaşdırılması üçün hansı səbəbdən təhlükəlidir?

6. İnkişaf və fövqəladə hallar şəraitində cinsi əlamətlərə görə təsnif olunmuş məlumat bazası bizə hansı səbəbdən lazımdır?

7. Qender rolları nədir?

8. Praktik və strateji qender tələbatları arasında fərq nədən ibarətdir?

9. Laiyhələrdə Strateji qender tələbatları hansı səbəbdən öyrənilməlidir?

10. Nə üçün qenderlə yanaşı sinfi, irqi, mənşəyi münasibət və yaş nəzərə alınmalıdır?

11. Mozer tərəfindən müəyən olunmuş siyasətin beş metodu hansılardır?

12. Qadınlarla ünsiyyətdə qender problemlərinin nədən qaldırması üçün nədən başlaya bilərsiniz?

13. Kişilərlə ünsiyyətdə qender problemlərinin nədən qaldırması üçün nədən başlaya bilərsiniz?

Qiymətləndirmə Sorğusu

Məqsədlər:

1. Treninq nəticəsində ayrı-ayrı üzvlərin, eləcə də qrupun bütövlükdə mövqeləri, bilikləri, bacarıqları və davranışlarında baş vermiş dəyişiklilərin qiymətləndirilməsi.

2. İştirakçılara onların öyrəndiklərinə dair öz münasibətlərini bildirmək imkanının verilməsi.

3. Treninqi aparmış şəxslərə onun ayrı-ayrı hisslərərinin səmərəliliyini qiymətləndirmə imkanının verilməsi.

*SORĞU*

Mən,

________________________________________________________

(cins və nömrə)

Bu sorğu konfidensial xarakter daşıdığı üçün adınızı yazmayın, yalnız gələcəkdə istifadəsi üçün nömrə yazın.

Xahiş olunur ki, suallara cavab verdikdə Sizin müvafiq mülahizə ilə hansı dərəcədə razı olub-olmamağınızı göstərən rəqəmi dairəyə alasınınz. 1-dən 5-ə qədər rəqəmlər mülahizə ilə razılıq dərəcəsini bildirir: 1 - «qəti razı deyiləm», 3 – «orta dərəcədə razıyam», və 5 – «tamamilə razıyam».

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| A.1 | Mən hesab etmirəm ki, qadın və kişilərin davranışı onların bioloji fərqlərinə görə fərqlənir. | 1 | 2 | 3 | 4 | 5 |
| A.2 | Mən hesab edirəm ki, qadınlar istənilən işin öhdəsindən gələ bilərlər. | 1 | 2 | 3 | 4 | 5 |
| A.3 | Qender tələbatları irqi, sinfi mənşəyi tələbatlarla bilikdə öyrənilməlidir. | 1 | 2 | 3 | 4 | 5 |
| A.4 | Mən ayrıseçkilik qurbanı olmuş insanların vəziyyətinə açıyıram. | 1 | 2 | 3 | 4 | 5 |
| A.5 | Mən qadın və kişilər bərabər olacaq zamanın gəlişinə inanıram. | 1 | 2 | 3 | 4 | 5 |
| A.6 | Mən hesab edirəm ki, inkişaf və fövqəladə köməklə bağlı bütün tədbirlərdə qender təhlilin həyata keçirilməsinə zərurət vardır. | 1 | 2 | 3 | 4 | 5 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| A.7 | Qender problemlərinin qaldırılması qadın və kişilər arasında münaqişənin yaranması üçün səbəb ola bilməz. | 1 | 2 | 3 | 4 | 5 |
| **A Bölməsi üzrə CƏMİ** | | | | | | |
| K.1 | Mən qenderin nə olduğunu anlayıram. | 1 | 2 | 3 | 4 | 5 |
| K.2 | Mən gün ərzində qadın və kişilərin nə ilə məşğul olduğunu müəyyən edilməsi metoduna bələdəm. | 1 | 2 | 3 | 4 | 5 |
| K.3 | Mən qadınların üç rolunu bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| K.4 | Mən praktik və strateji qender tələbatları arasındakı fərqləri bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| K.5 | Mən qadınların dünyada vəziyyətinə dair faktları bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| K.6 | Mən diskriminasiya prosesini anlayıram. | 1 | 2 | 3 | 4 | 5 |
| K.7 | Mən təşkilatımın qender siyasətini bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| K Bölməsi üzrə CƏMİ | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| S.1 | Başqalarını dinləmək mənim üçün çətinlik yaratmır. | 1 | 2 | 3 | 4 | 5 |
| S.2 | Başqaları qarşısında öz hisslərimi bildirmək mənim üçün çətin deyil. | 1 | 2 | 3 | 4 | 5 |
| S.3 | Mən qender disbalansının təşkilatı quruluşunu təhlil edə bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| S.4 | Mən Mozer Qender Planlaşdırılması Metodunu tətbiq etməklə layihələri təhlil edə bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| S.5 | Mən Harvard Praktiki Misallar Metodunu tətbiq etməklə layihələri təhlil edə bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| S.6 | Mən kənd yerində qendera dair məlumatların toplanmasının bir metodunu bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| S.7 | Mən başqalarına qenderin nə olduğunu izah edə bilirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| **S Bölməsi üzrə CƏMİ** | | | | | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| B.1 | Mən qrupa tamamilə etibar edirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| B.2 | Mən qrupda fəal iştirak edirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| B.3 | Diskriminasiya xarakterli çıxışları eşitdikdə, mən onlara öz münasibətimi bildirərək təkzib edirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| B.4 | Mən kişilərlə münasibətdə qender problemlərini qaldırmağa özümü hazır heab edirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| B.5 | Mən qadınlarla münasibətdə qender problemlərini qaldırmağa özümü hazır heab edirəm. | 1 | 2 | 3 | 4 | 5 |
| B.6 | Mən qenderin siyasətə və təcrübəyə inkorporasiya etmək üçün strategiyaya malikəm. | 1 | 2 | 3 | 4 | 5 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| B.7 | Treninq zamanı əldə etdiyim biliklər mənə qender fəaliyyətimin daha da səmərəli həyata keçirilməsində köməklik göstərəcək. | 1 | 2 | 3 | 4 | 5 |
| B bölməsi üzrə CƏMİ | | | | | | |
| **ÜMUMİ NƏTİCƏ (A + K + S + B)** | | | | | | |